# Azərbaycanın Xarici İşlər naziri Qoşulmama Hərəkatının XVIII Sammiti çərçivəsində bir sıra görüşlər keçirib

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində bir sıra görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Maldiv Respublikasının Xarici İşlər naziri Abdulla Şahid ilə görüşdə Azərbaycan və Maldiv Respublikası arasında siyasi, iqtisadi, təhsil və turizm sahələrində əməkdaşlığın inkişafı perspektivləri müzakirə olundu.

Abdulla Şahid Qoşulmama Hərəkatının Nazirlər Konfransının yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür etdi.

Elmar Məmmədyarov qarşılıqlı səfərlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafına təkan verəcəyini bildirdi.

Nazir Abdulla Şahid iki ölkə arasında birbaşa uçuşların həyata keçirilməsinin vacibliyini vurğuladı.

Nazir Elmar Məmmədyarov, öz növbəsində, turizmi təşviq etmək məqsədilə iki ölkə arasında viza rejiminin aradan qaldırılması istiqamətində müvafiq işlərin görülməsini təklif etdi.

Tərəflər, həmçinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi və beynəlxalq arenada əməkdaşlıq məsələlərini müzakirə etdilər.

* * *

Zambiyanın Xarici İşlər naziri Cozef Malanjı ilə görüşdə iki ölkə arasında həm siyasi, həm də mədəni və humanitar sahələrdə tərəfdaşlığın artırılması üçün perspektivlərin mövcudluğu vurğulandı. Bu xüsusda, turizm və təhsil sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün ölkələr arasında müqavilə-hüquq bazasının artırılması, o cümlədən vizasız gediş-gəliş sisteminin tətbiq edilməsinin vacibliyi qeyd olundu.

Elmar Məmmədyarov Azərbaycan ilə Zambiya arasında ikitərəfli əsaslarla yanaşı, beynəlxalq platformalar, bu xüsusda BMT və Qoşulmama Hərəkatı çərçivəsində də mövcud perspektivlərdən faydalanmağın vacibliyini vurğuladı.

Cozef Malanjı ölkələr arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. O, Zambiya Prezidenti tərəfindən Azərbaycan Prezidentinə ünvanlanmış məktubu təqdim etdi.

* * *

Efiopiya Xarici İşlər nazirinin müavini Markos Tekle ilə görüşdə isə iki ölkə arasında əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə edildi. İqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri qeyd olundu.

Efiopiya rəsmisi Azərbaycanı Qoşulmama Hərəkatında sədrliyə başlaması və XVIII Zirvə Görüşünün uğurlu təşkili münasibətilə təbrik etdi. O, Azərbaycanın sədrliyinin uğurlu olacağına və ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf edəcəyinə ümidini ifadə etdi.

Nazir Elmar Məmmədyarov Qoşulmama Hərəkatı ilə G-77 arasında əlaqələndirilmiş fəaliyyətin və Cənub-Cənub əməkdaşlıq platforması çərçivəsində birgə səylərin əhəmiyyətinə diqqət yetirdi. Həmçinin Efiopiyaya səfərini xatırlayan Elmar Məmmədyarov səfərin çox məhsuldar keçdiyini qeyd etdi. O, efiopiyalı həmkarını Azərbaycana səfərə dəvət etdi.

* * *

Elmar Məmmədyarovun daha bir görüşü Niger Respublikasının Xarici İşlər, Əməkdaşlıq və Afrika İnteqrasiyası naziri Kalla Ankurao ilə olub. O, Azərbaycanın Niger ilə əməkdaşlığının dərinləşdirilməsində maraqlı olduğunu dedi.

Nazir Kalla Ankurao Qoşulmama Hərəkatının Zirvə görüşünün yüksək səviyyədə təşkil edildiyini söylədi və ölkəmizə sədrliyi dövründə uğurlar arzuladı.

Görüşdə Nigerdən olan tələbə və mütəxəssislərin Azərbaycanda təhsil almaq, habelə neft sənayesi sahəsində Azərbaycanın təcrübəsindən faydalanmaq niyyətində olduğu qeyd edildi və bu istiqamətlərdə məhsuldar əməkdaşlığın davam etdirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin iki ölkə arasında beynəlxalq təşkilatlar, xüsusilə BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində sıx əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyəti qeyd edildi. Niger ilə Azərbaycan arasında BMT və İƏT çərçivəsində təşəkkül tapmış əməkdaşlığın Qoşulmama Hərəkatı çərçivəsində də müvəffəqiyyətlə inkişaf edəcəyinə dair əminlik ifadə edildi. Bu xüsusda, 2020-ci ildən Nigerin BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyünün gözəl fürsət olacağı bildirildi.

Azərbaycan.- 2019.- 27 oktyabr.- S.4.